*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 iyul 2016-cı il № 53 (2068) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu istənilən hərbi vəzifəni icra edə bilər

### Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



***İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Dövlətimizin başçısı iclasda nitq söyləyərək altı ayın yekunlarını təhlil etdi, həmçinin ordu quruculuğu və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq dedi:***

- İlin altı ayı arxada qalıb. Bu gün biz altı ayın yekunlarını müzakirə edəcəyik. Görüləcək işlər haqqında danışacağıq. Deyə bilərəm ki, 2016-cı ildə dünyanın müxtəlif bölgələrində hərbi toqquşmalar, müharibələr davam edir, yeni münaqişə ocaqları yaranır, dünyada təhlükələr artır. Eyni zamanda, ilin əvvəlindən və ondan əvvəlki dövrdən başlayaraq dünyada iqtisadi böhran daha da dərinləşir və demək olar ki, bütün ölkələr bu və ya digər formada bu böhrandan əziyyət çəkir.

Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur, ictimai-siyasi sabitlik möhkəmlənir. Ölkə qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir. 2016-cı ildə də, - baxmayaraq ki, neftin qiyməti hələ də çox aşağı səviyyədədir, - Azərbaycan inamla inkişaf edir. Bunun təməlində düşünülmüş siyasət, apardığımız islahatlar və ölkəmizin gələcəyi ilə bağlı olan proqramlarımız dayanır. Azərbaycan uğurla inkişaf edir. Əminəm ki, biz bu ili də müvəffəqiyyətlə başa vuracağıq.

2016-cı ildə Ermənistanın növbəti təxribatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində çox ciddi fəsadlara gətirib çıxarmışdır. Ermənistanın niyyəti bəllidir. Onlar danışıqları müxtəlif yollarla pozmaq istəyirlər və görəndə ki, beynəlxalq vasitəçilər tərəfindən onlara təzyiq artır, növbəti təxribatlara əl atırlar. Onlardan biri də aprelin əvvəlində baş vermiş silahlı təxribat idi. Bizim mövqelərimizə silahlı hücum təşkil edilmişdir. Ancaq Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi, əks-hücum əməliyyatı keçirərək işğal altındakı torpaqların bir hissəsini, daha dəqiq desəm, 2 min hektar torpağı azad etdi. Biz indi ondan bir neçə dəfə böyük əraziyə tam nəzarət edirik.

Bu münaqişə tezliklə öz həllini tapmalıdır. Əgər belə olmasa, heç kim təminat verə bilməz ki, bu təxribatlar təkrarlanmayacaq. Çünki Ermənistanın niyyəti münaqişəni dondurulmuş vəziyyətdə saxlamaqdır. Onlar fikirləşirdilər ki, bizə qarşı edilən təxribat onların qələbəsi ilə nəticələnəcək. Ancaq onlar acı məğlubiyyətə uğradılar. Azərbaycan dövləti böyük hərbi qələbə qazanmışdır.

Aprel döyüşləri bir daha onu göstərir ki, status-kvo tezliklə dəyişdirilməlidir. Bunu artıq bu məsələ ilə məşğul olan vasitəçilər də dəfələrlə bəyan ediblər. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqların azad edilməsi deməkdir. Əminəm ki, aprel döyüşlərinin nəticələri Ermənistan üçün dərs olacaq, onlar lazımi nəticələr çıxaracaqlar və danışıqlar prosesində konstruktiv mövqe ilə çıxış edəcəklər. Belə ümidlər var. Çünki bir daha demək istəyirəm ki, son bir-iki ay ərzində danışıqlar prosesində çox böyük fəallıq var.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün prioritet məsələdir. Bu məsələnin tezliklə beynəlxalq hüququn normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim üçün əsas vəzifədir. Bu münaqişənin həllinin başqa yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, status-kvo dəyişdirilməlidir, işğala son qoyulmalıdır. Nəinki BMT, bütün digər təşkilatlar da bizim mövqeyimizi dəstəkləyir. Dünən NATO-nun Zirvə görüşündə qəbul edilmiş yekun sənəddə də Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı çox ciddi məqamlar öz əksini tapıbdır. Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü tanınır və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır.

2016-cı ildə bizim xarici siyasətimiz çox fəal olmuşdur. İlin birinci yarısında Azərbaycana 10-dan çox dövlət və hökumət başçısı səfər etmişdir. Mənim çoxsaylı xarici səfərlərim beynəlxalq əlaqələrimizi daha da möhkəmləndirib. Mən ilin əvvəlindən bəri bir neçə beynəlxalq tədbirdə iştirak etmişəm. Davos Ümumdünya İqtisadi Forumu - bu, dünya miqyasında birinci beynəlxalq tədbirdir. Orada həm iqtisadi, həm siyasi məsələlər gündəlikdədir. Ondan sonra Münxen Təhlükəsizlik Konfransı - bu da dünya miqyasında Davos Forumu ilə eyni səviyyədə olan beynəlxalq tədbirdir. Orada da Azərbaycanın, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi səsləndi. Londonda Suriyaya yardım məqsədilə keçirilmiş konfransda mənim iştirakım Azərbaycanın mövqeyini və imkanlarını bir daha ortaya qoydu. Vaşinqtonda Nüvə Sammitində Azərbaycan fəal iştirak etmişdir. Bizim o Sammitə dəvət olunmağımız ölkəmizin nüfuzunu göstərir. Çünki Azərbaycan nüvə dövləti deyil və Azərbaycanda nüvə tədqiqatları demək olar ki, aparılmır. Ancaq buna baxmayaraq, Azərbaycan oraya dəvət edilmiş ölkələrin sırasında idi. Eyni zamanda, Sammit çərçivəsində Amerikanın yüksək səviyyəli rəhbərləri ilə - Prezident, dövlət katibi ilə mənim çox səmərəli görüşlərim olmuşdur.

Mən Türkiyədə iki beynəlxalq tədbirdə iştirak etmişəm. İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü keçirilmişdir və orada aprel döyüşləri ilə bağlı Azərbaycanın mövqeyi tam dəstəklənmişdir. Yekun bəyannamədə Azərbaycanın ərazi bütövlüyü məsələləri əks olunmuşdur və münaqişənin bu prinsiplər əsasında həlli qeyd edilmişdir. Bununla bərabər, münaqişə ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində kontakt qrupu da yaradıldı. Bu da bizim böyük diplomatik uğurumuzdur.

Türkiyədə digər mötəbər beynəlxalq tədbirdə - Dünya Humanitar Sammitinin işində Azərbaycan çox fəal iştirak etmişdir. Bu səfərlərlə yanaşı, ikitərəfli formatda bir neçə səfər təşkil edilmişdir - Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə və Almaniyaya. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı iki görüş keçirilmişdir. May ayında Vyanada, iyun ayında isə Sankt-Peterburqda.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Varşavada keçirilən NATO-nun Sammitində iştirak edib

***İyulun 9-da Varşavada NATO Sammiti çərçivəsində "Dövlət və hökumət başçıları səviyyəsində "Qətiyyətli dəstək" missiyası çərçivəsində aparılan əməliyyatlarda iştirak edən tərəfdaş dövlətlərlə Əfqanıstan üzrə görüş" mövzusunda sessiya keçirilib.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əfqanıstanda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində dünya birliyinin irəli sürdüyü təşəbbüslərə Azərbaycan da öz dəstəyini verir. Ölkəmiz Əfqanıstana sülhməramlı qüvvələrimizin orada təmsil olunması, müəyyən təlimlərin keçirilməsi ilə və digər müxtəlif proseslərdə dəstək göstərir.

NATO-nun Varşava Sammitində "Dövlət və hökumət başçıları səviyyəsində "Qətiyyətli dəstək" missiyası çərçivəsində aparılan əməliyyatlarda iştirak edən tərəfdaş dövlətlərlə Əfqanıstan üzrə görüş" mövzusunda sessiyada bu məsələlərə toxunan Prezident İlham Əliyev dedi:

- Cənab baş katib, həmkarlar.

Əfqanıstanın təhlükəsizliyi və davamlı inkişafı regional və qlobal sabitlik üçün olduqca əhəmiyyətlidir.

NATO-nun etibarlı tərəfdaşı və Əfqanıstanın dostu kimi Azərbaycan "Qətiyyətli dəstək" missiyasına əsgərləri vasitəsilə verdiyi nəzərəçarpan töhfəsini davam etdirəcək və müxtəlif növ tranzit daşımalarını təmin edəcək.

Azərbaycan Əfqanıstanın milli ordusunun Qəyyumluq Fonduna artıq bir neçə dəfə əhəmiyyətli yardımlar göstərib. Biz götürdüyümüz öhdəliklərə uyğun olaraq, həmin Fondu maliyyə baxımından dəstəkləməkdə davam edəcəyik.

Biz Əfqanıstan ilə uzunmüddətli siyasi tərəfdaşlığa və praktiki əməkdaşlığa sadiq qalırıq və "Qətiyyətli dəstək" missiyası başa çatdıqdan sonra geniş Davamlı Tərəfdaşlıq Proqramı çərçivəsində töhfəmizi verməyi nəzərdə tuturuq.

Azərbaycanın Əfqanıstanda sabitliyə və inkişafa verdiyi töhfə NATO əməliyyatlarındakı iştirakımızdan əlavə olaraq həyata keçirilir.

Biz hərbi tədris, təhsil, infrastruktur, daşıma, sərmayələr və qadınların cəmiyyətdə rolunun artırılması kimi sahələrdə praktiki yardım göstərməklə, Əfqanıstanı etibarlı gələcəyə doğru islahatlar yolunda ikitərəfli qaydada dəstəkləyirik.

Azərbaycan yaxın gələcəkdə başa çatdırılacaq Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsinə əhəmiyyətli dərəcədə maliyyə və texniki dəstəyini göstərib. Bu layihə Avropa və Asiyanın dəmir yolu xətlərini Azərbaycan vasitəsilə birləşdirəcək. Əfqanıstan, həmçinin bu mühüm daşımalar şəbəkəsinə qoşula bilər.

Xəzər regionunda ölkəmizin ən iri Beynəlxalq Ticarət Limanının tikintisi Avrasiyada əməkdaşlıq üçün yeni imkanlar yaradır. Əminəm ki, Əfqanıstan, həmçinin bu layihədən faydalanacaq.

Azərbaycan-NATO tərəfdaşlığı beynəlxalq hüququn və təhlükəsizliyin bölünməzliyi prinsiplərinə əsaslanır. Əfsuslar olsun ki, həmin prinsiplər hələ də pozulur. Azərbaycanın ərazisinin təxminən 20 faizini silahlı qüvvələri ilə işğal etmiş və bir milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə aparmış, hərbi cinayətlər törətmiş Ermənistan Azərbaycana qarşı davamlı şəkildə gücdən istifadəsi nəinki ölkəmizin ərazi bütövlüyünü pozur, o cümlədən regional təhlükəsizliyə ciddi təhdid yaradır.

İyirmi ildən artıqdır ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamələrini yerinə yetirməkdən imtina edir. Biz status-kvonun qəbuledilməzliyini bəyan edən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin, eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatlarını dəstəkləyirik. Status-kvonun dəyişdirilməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsi deməkdir. Biz Varşava Sammitinin Bəyannaməsində bir daha qeyd edildiyi kimi, Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə NATO-nun yenidən verdiyi dəstəyi yüksək dəyərləndiririk.

Sağ olun.

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu istənilən hərbi vəzifəni icra edə bilər

**(Əvvəli 1-ci səhifədə)**

Yəni, bütün bu beynəlxalq tədbirlər və Azərbaycanın o tədbirlərdə fəal iştirakı ölkəmizin önəmini göstərir, eyni zamanda, bizim üçün yeni imkanlar açır. Hər bir beynəlxalq tədbirdə Azərbaycanın mövqeyi səslənir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı. Dünən Varşavada NATO-nun Zirvə görüşündə də çıxışımın demək olar ki, yarısını mən bu mövzuya həsr etmişəm və orada iştirak edən dövlət və hökumət başçıları bir daha həqiqətləri eşidiblər. Ermənistanın yalanları artıq heç kimə təsir göstərmir. Onlar diaspor imkanlarından və bizim beynəlxalq səviyyədə o qədər də çıxışımızın olmamasından istifadə edərək münaqişə ilə bağlı yalan məlumatlar yayırdılar. İndi artıq o dövr arxada qalıb. Həqiqət ondan ibarətdir ki, Azərbaycan haqlıdır və beynəlxalq hüququn normaları bu münaqişə ilə bağlı tam şəkildə tətbiq edilməlidir.

Münaqişənin həlli ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm ki, bu il, xüsusilə son üç-dörd ay ərzində danışıqlar prosesində bəlkə də tarixdə görünməyən fəallıq müşahidə olunur. Aprel hadisələrindən sonra may ayında Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə Vyanada görüş keçirilmişdir. Düzdür, Ermənistan tərəfi görüşün keçirilməsi üçün bir neçə şərt irəli sürmüşdür. Bu şərtləri irəli sürərək özlərini bir daha gülünc vəziyyətə qoymuşdular. Çünki yaxşı bilirdilər ki, Azərbaycan heç bir şərtlə razılaşmayacaq. Danışıqlar prosesi bizə də, onlara da lazımdır. Aprel hadisələri bunu bir daha göstərib. Əgər danışıqlar prosesi pozularsa və Ermənistan yenə də öz təxribatçı fəaliyyətini davam etdirərsə, vəziyyət dəyişə bilər.

Beləliklə, may ayında keçirilmiş görüşə Azərbaycan heç bir şərt qəbul etmədən qatılıb və öz mövqeyini ifadə edib. May görüşündə Azərbaycan tərəfindən hər hansı bir sənəd, yaxud da ki, bəyanat nə imzalanıb, nə də qəbul edilib. Həmsədr ölkələr bəyanat qəbul ediblər, amma o bəyanat onların daxili işidir. İyun ayında Rusiya tərəfinin təşəbbüsü, Prezident Putinin dəvəti ilə Sankt-Peterburqda görüş keçirilmişdir. O görüş də çox müsbət keçmişdir və müəyyən ümidlər yaratmışdır. Məhz buna görə görüşün nəticəsində birgə bəyanat qəbul edilmişdir. Bu bəyanat mətbuatda dərc edilib. Hesab edirəm ki, Azərbaycan dövlətinin mövqeyi o bəyanatda kifayət qədər geniş yer alıbdır.

Dünən Fransa Prezidenti cənab Ollandla görüşüm olubdur. Fransa da həmsədr ölkə kimi münaqişənin həlli üçün çalışır. Biz əslində Minsk Qrupunun fəallığını müşahidə edirik. Həm Amerika, həm Rusiya, indi də Fransa Prezidenti bu məsələ ilə çox ciddi məşğuldurlar. Danışıqlar indi fəal mərhələyə keçməlidir və Ermənistan konstruktiv mövqe nümayiş etdirməlidir. Yəni, artıq məsələnin mərhələli yollarla həlli bütün həmsədr dövlətlər tərəfindən, ATƏT tərəfindən qəbul edilir. Biz həmişə demişik və deyirik, bunun başqa yolu yoxdur. Məsələ mərhələli yolla həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. İkinci erməni dövləti yaradıla bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilə bilməz. Bunu artıq beynəlxalq ictimaiyyət qəbul edir. Əvvəlki dövrlərdə biz başqa fikirlər eşidirdik. Əfsuslar olsun ki, əvvəlki dövrlərdə bəzi hallarda beynəlxalq hüquq, BMT-nin qətnamələri kənarda qalırdı və Dağlıq Qarabağın gələcəyi ilə bağlı həqiqətə, o cümlədən tarixi həqiqətə uyğun olmayan müxtəlif təkliflər irəli sürülürdü. Bütün bunlar artıq keçmişdə qaldı. Məsələnin mərhələli yollarla həlli yeganə mümkün variantdır. Əgər bu variant reallaşarsa, onda həm torpaqlarımız işğalçılardan azad ediləcək, eyni zamanda, Dağlıq Qarabağın erməni əhalisi və mütləq oraya qayıdacaq azərbaycanlılar sülh, təhlükəsizlik şəraitində yaşayacaqlar. Bunun başqa həlli yolu yoxdur.

Qeyd etməliyəm ki, son 3-4 ay ərzində danışıqlarda çox böyük fəallıq müşahidə edilir. Təbiidir, Ermənistan indi hər vəchlə çalışacaq ki, danışıqlar prosesinə yenə də zərbə vursun. Yenə də çalışacaq ki, vaxtı uzatsın. İstisna edilmir ki, təmas xəttində növbəti təxribata əl atmaqla danışıqları pozsun. Necə ki, 2014-cü ildə Parisdə Prezident Ollandın təşəbbüsü ilə keçirilmiş çox müsbət danışıqlardan sonra bir həftə keçməmiş Ağdam rayonunda onlar genişmiqyaslı hərbi təlimlər keçirmişdilər. Bu, sırf təxribat idi və bunu indi hamı bilir, beynəlxalq ictimaiyyət də bilir. Bunu bəyan etməsələr də bilirlər. Həmin təxribat zamanı mövqelərimizə qəsdən hücum çəkmişlər ki, biz o helikopteri vuraq və ondan sonra bizi təcavüzkarlıqda ittiham etsinlər, danışıqlar pozulsun və pozuldu da. 2015-ci il danışıqlar prosesi üçün itirilmiş il olmuşdur. Sadəcə olaraq, Minsk Qrupu dekabr ayında görüntü naminə İsveçrədə formal görüş keçirmişdir. O görüşdən sonra görünür Ermənistan tərəfi görüb ki, bu proses fəallaşa bilər və aprel ayında növbəti təxribat törətmişdir. Ona görə məsələ ilə məşğul olan böyük dövlətlər bütün bu reallıqları bilməlidirlər. Əslində, bilirlər. Mən ikitərəfli formatda Azərbaycanın mövqeyini, real məsələnin bu tarixini və münaqişənin səbəblərini açıqlamışam. Ona görə hesab edirəm ki, indiki dövrdə yaxşı imkanlar yaranıb. Ümid edirəm ki, bu proses müsbət nəticələrə gətirib çıxaracaq.

Bununla bərabər, təbii ki, biz hərbi potensialımızı gücləndiririk və gücləndirəcəyik. Aprel döyüşləri bir daha onu göstərib ki, biz düzgün siyasət aparırdıq və aparırıq. Bu gün hər kəs görür ki, Azərbaycan Ordusu həm texniki təchizat, həm döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasındadır. Bu gün Azərbaycan Ordusu istənilən hərbi vəzifəni icra edə bilər. Biz sadəcə olaraq hələ də ümid edirik ki, bu münaqişə sülh yolu ilə həll oluna bilər və ümidlərimiz bir qədər artıb. İndi əsas məsələ bundan ibarətdir - həmsədr ölkələr və ATƏT Ermənistana ciddi təzyiq göstərməlidir ki, onlar təklif olunan məsələ ilə bağlı müsbət cavab versinlər.

Hərbi potensialımızın gücləndirilməsi prioritet olaraq qalacaq. Aprel hadisələrindən sonra çox ciddi əlavə tədbirlər görülüb. Bizim döyüş qabiliyyətimiz böyük dərəcədə artıb, daha da artacaq. Biz ən müasir texnika, silah-sursat alırıq. Əlbəttə ki, bu, bizim gücümüzü artırır və danışıqlar prosesində mövqelərimizi gücləndirir. Ona görə artıq uzun illər ərzində apardığımız siyasət öz səmərəliliyini təsdiq etdi. Bundan sonra hərbi potensialımızın gücləndirilməsi, ordu quruculuğu prosesi daha da sürətlə getməlidir. Həm yerli istehsal daha da artmalıdır və artacaq, - bu gün artıq Azərbaycanın çox güclü hərbi sənayesi vardır, - həm də ən qabaqcıl texnologiyaya malik olan silahlar alınır və alınacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Vətənpərvərlik

# Vətən sevgisinin işığı

## "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsinə yola salındı

*Yaydı. Sərin-sərin külək əsir. Sahil bağı qələbəlikdi. Narahatlıqla gəzişənlər də var, xışın-xışın oğluna nələrsə deyən, öyüd-nəsihət verən, nəsə tapşıran, bu günün könül xoşluğunu, sevincini, fərəhini, qürrəsini tarixləşdirən anları tarix eləyənlər də. Ağacların xırda budaqları titrəşir. Zamana sığmayan anlar uşaqların rahatlığını əlindən alıb; uşaqlar uğur üstədi, uşaqlar tələsir...*

*Uşaq dünyası yerə-göyə sığışmır. 9-10 yaşlı bir uşağın dalğın baxışları diqqətimdən yayınmır. Söhbətləşirəm. Məlum olur ki, altıncı sinif şagirdidi, dərs əlaçısıdı. Sinif yoldaşı da onlarla getməliymiş, xəstələnib. "Elə gözəl xəyallarımız varıydı ki. O da əsgərlərlə ünsiyyətdə olmaq istəyirdi..." - kövrəlir...*





Müdafiə Nazirliyi ilə Səbail rayon İcra Hakimiyyətinin birgə layihəsi yeniyetmələrin vətənpərvərlik tərbiyəsinin təkmilləşməsinə, yüksəlişinə hesablanıb; şagirdlər - "Gənc Heydərçilər" respublikamızın şəfalı guşələrindən birinə - Qusarda yerləşən "N" hərbi hissəsinə hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsinə yola salınır. Onlar (180 nəfər) 14 gün müddətində istirahət edəcək, hərbi hissənin həyatıyla, hərbi xidmətlə, atıcı silahlarla, hərbi texnika ilə yaxından tanış olacaqlar, istirahət etməklə yanaşı, müəyyən mənada, əsgər həyatı yaşayacaqlar.

Tədbiri polkovnik Abdulla Qurbani açır. "Gənc Heydərçilər" də, valideynlər də, ictimaiyyətin nümayəndələri də hərbi orkestrin müşayiəti ilə Dövlət himnimizin ifaçısı olur. Sahil bağı bu biçim sevincə, bu fərəhə darlıq eləyir elə bil. Hamının gözlərində sevinc "çiçəkləyib"...

Polkovnik Abdulla Qurbani qeyd edir ki, vətənpərvərlik ruhu elə bu yaşlardan formalaşır. Bu yaşda uşaqların maraq dairəsi geniş, nəyisə, nələrisə öyrənmək həvəsi böyük olur. Gələcəkdə hansı peşəni seçməsindən asılı olmayaraq onların hər biri Vətəni varlığıyla sevməlidir. Məqamında onlar da hərbi xidmətdə olacaqlar. Azərbaycan əsgəriylə təmas, Azərbaycan əsgərinin məişətiylə, istifadə elədiyi silahlarla tanışlıq onlarda hərbi xidmətə də, hərbçi peşəsinə də böyük maraq yaradacaq. Aprel döyüşləri hamımızın ruhuna hopdu. O sevinci bu gün hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsinə yola saldığımız məktəblilər də yaşadı. Şagirdlər düşərgədə onlara bu sevinci yaşadanlarla da görüşəcəklər. Bu görüş hər birinin ömrünə yazılacaq. Bu gün düşərgəyə yola düşənlər də, yola salanlar da bir amalın daşıyıcısıdı: hər şey Vətən üçün!

Polkovnik Abdulla Qurbani çıxışını "Bayraqtəpə qartalları" poemasından möhtəşəm, yüksək poetik dəyərə malik olan misralarla tamamlayır...

Səbail rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov çıxışında qeyd edir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeniyetmə və gənclərimizin vətənpərvərlik, Azərbaycan dövlətçiliyinə sədaqət və s. ruhda böyüməl追ərini prioritet bilir. Bu, ayrı-ayrı rayonlarda öz əksini tapmalıdır. Biz buna ciddi əməl edirik.

İcra başçısı ölkə Prezidentinin gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində gördüyü işlərdən, yeniyetmələrə diqqət və qayğısından söz açaraq deyir ki, bugünkü tədbir ölkə başçısının gənclər siyasətinin tərkib hissələrindəndir. Bu şagirdlərin gələcəkdə təhsildə də, idmanda da, ictimai işlərdə də fəal olacaqlarına inanırıq.

General-mayor Rasim Əliyev çıxışında hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsinə yola salınan "Gənc Heydərçilər"ə Müdafiə nazirinin salamlarını çatdırır: "Gənclik dövlətimizin böyük sərvətidir. Dövlətçiliyimizin, torpaqlarımızın müdafiəsində yaxın gələcəkdə onlar dayanacaqlar. Yeniyetmələrin vətənpərvərlik ruhunda böyümələri dövlət başçısının gənclər siyasətinin ayrılmaz tərkib hissəsidir. Müdafiə Nazirliyi bu istiqamətdə həyata keçirilən tədbirlərin həm təşkilatçısı olur, həm də belə tədbirlərdən köməyini əsirgəmir. Yay düşərgəsinə yola saldığımız şagirdlərin yüksək vətənpərvərlik ruhunda böyüyəcəyinə inamımız böyükdür. Hərbi hissədə yaradılmış şərait layihənin yüksək səviyyədə həyata keçiriləcəyinə zəmindir...

Aprel döyüşlərindən sonra Müdafiə Nazirliyinə minlərlə məktub daxil oldu. O məktubu yazanların əksəriyyəti məktəbli idi. Bəlkə bu gün yay düşərgəsinə yola düşənlərdən də məktub yazanlar olub. Şadam ki, yeniyetmələrimiz bu ruhda böyüyür."

...Bir ağsaqqalın tədbiri qədərsiz maraqla izlədiyini hiss edincə onunla kəlmələşməyi qərara alıram. Mikayıl Bağırov elmlər doktorudu, professordu, aparıcı elmi işçidi. 11 yaşlı nəvəsi Fəxrini yola salmağa gəlib:

- Təbii ki, mən də sevinirəm. Nəvəm yaxşı oxumasa, onu yay düşərgəsinə göndərməzdilər. Ona da sevinirəm ki, Fəxri arzuladığım səviyyədə böyüyəcək. Biz o yaşda olanda Vətən anlamı belə deyildi. İndi Vətənin nə olduğunu bu yaşda uşaqlar daha gözəl başa düşürlər. Deməli, Vətən məfhumu onların ruhundadı. Belə bir şərait yaratdıqlarına görə Müdafiə naziri general-polkovnik Zakir Həsənova, Səbail rayon İcra Hakimiyyətinin rəhbərliyinə təşəkkürümü bildirirəm.

Öyrənirəm ki, "Gənc Heydərçilər" xüsusi geyim, forma və idman ləvazimatları ilə təmin edilib. İstirahət müddətində onlar rayonun mənzərəli yerlərində, tarixi abidələrində ekskursiyalarda olacaqlar.

Zərəngiz Mansurova 13 yaşlı oğlu İbrahimi yola salır. Qızları Ülkər və Aynurla. Bacıların qardaşlarını əzizləməsi mənə könül xoşluğu verir: bacılar gələcəkdə əsgər olacaq oğulu əzizləyirlər (bir azdan öyrənəcəm ki, İbrahim gələcəkdə hərbçi olmağı arzulayır)...

İbrahim 45 saylı orta məktəbin şagirdidi. Dərs əlaçısıdı.

- Yay düşərgəsinə keçən il də getmişdim. Yaxşı istirahət elədik. Həm də əsgərlərlə tanış olduq. Əsgər həyatı məni də maraqlandırdı. Ciddi nizam-intizam, əmri sözsüz və vaxtında yerinə yetirmək, komandirlərin məsləhətlərini dinləmək - bunları gördüm. Silahlarla, döyüş texnikalarıyla tanışlıq mənim böyük marağıma səbəb oldu. Elə orda gələcəkdə hərbçi olmağı qərara aldım. Yəqin ki, valideynlərim mənim qərarımı bəyənəcəklər.

Bayaqdan bəri bizi diqqətlə dinləyən yeniyetmə gülümsünərək: "Mən də hərbçi olacam," - deyir. - Həm də yaxşı hərbçi olacam"...

Öyrənirəm ki, gələcək həyatını indidən müəyyənləşdirən Rasim Əliyev 42 saylı orta məktəbin yeddinci sinif şagirdidi. Həm dərs əlaçısıdı, həm də idmanla müntəzəm məşğul olur. Yunan-Roma güləşinin sirlərini öyrənir. "Rəsul Çunayev kimi Azərbaycanın bayrağını mən də dalğalandıracam, mənim də şərəfimə Azərbaycanın himni səsləndiriləcək. İdmançı hərbçi olmağı qərara almışam..."...

Yeniyetmələrlə söhbətin cazibəsindən çıxmaq asan deyil. Bunu arzulamıram da. Gələcəyin zabitləriylə kəlmələşmək mənə qədərsiz könül xoşluğu verir. Həm də belə düşüncəli yeniyetmələrlə...

Yolasalma mərasimi bir azdan başa çatacaq...

Şagirdlər qrup rəhbərinin müşayiəti ilə məxsusi ayrılmış avtobuslara tələsirlər...

Külək ağacdan yarpaq salır. İbrahim yarpağı ağacın yanına qoyur; yarpaq ağacından uzaq düşməsin deyə. Kövrəlirəm. İbrahimin duyumu kövrəldir məni; vətənpərvərlik təmayüllü yay düşərgəsinə belə yeniyetmələr göndəririk! Belə yeniyetmələr əsgər olanda Vətən torpağını da bu düşüncələrlə, bu duyumla, bu ürəklə qoruyacaqlar, şübhəsiz...

...İbrahimə, Fəridə, Raula, Rəşada, Üzeyirə... deyirəm ki, gedin, istirahət eləyin, Azərbaycan əsgəriylə təmas, söhbət sizin mənəvi hazırlığınızı Vətənin arzuladığı səviyyəyə çatdıracaq, dünyaya Vətən sevgisinin işığından baxacaqsınız. İşğaldan azad edilmiş torpaqlarımızda hərbi xidmətdən qürurlanacaq, fəxrlə, dərununi sevgilərlə "Mən Azərbaycan əsgəriyəm!" deyəcəksiniz!..




**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**Mövlan NƏSİRZADƏNİNDİR**

# Lənkəranda "Aprel döyüşləri - ruhumuzun qələbəsi!" devizi ilə hərbi vətənpərvərlik mövzusunda tədbir keçirilib

***İyulun 9-da Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Müdafiə Nazirliyi və Lənkəran şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Aprel döyüşləri - ruhumuzun qələbəsi!" devizi ilə hərbi vətənpərvərlik mövzusunda tədbir keçirilib.***



AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Toplantıda Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda, eləcə də aprel döyüşlərində şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Lənkəran şəhər İcra Hakimiyyətinin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Əlimərdan Əliyev tədbirdə çıxış edərək bildirib ki, aprel döyüşlərində Milli Ordumuzun qazandığı qələbə ölkəmizin bütün vətəndaşları kimi, lənkəranlıların da böyük ruh yüksəkliyinə səbəb oldu. O, həmin döyüşlərdə ölkəmizin digər bölgələri ilə yanaşı, lənkəranlı hərbi qulluqçuların da fədakarlıq, rəşadət göstərdiklərini vurğulayaraq onlardan şəhidlik zirvəsinə ucalanların olduğunu diqqətə çatdırıb.

Mərasimdə çıxış edən Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani aprel döyüşlərində Milli Ordumuzun hərbi qulluqçularının göstərdiyi igidlikdən, qəhrəmanlıq nümunələrindən danışıb.

Qeyd olunub ki, aprel döyüşlərində fərqlənən oğullarımız və şəhidlik zirvəsinə ucalmış Vətən övladları Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə orden və medallarla, fəxri adlarla mükafatlandırılıb. Şəhid ailələrinə ölümündən sonra təltif olunduqları medallar təqdim edilib.

Diqqətə çatdırılıb ki, aprel döyüşləri Azərbaycan dövlətinin qüdrətinin, Milli Ordumuzun gücünün və xalqımızın monolit birliyinin nümayişinə çevrilib.

Tədbirdə Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli çıxış edərək Azərbaycanda ordu quruculuğunun ən yüksək səviyyədə olduğunu bildirib.

Ölkəmizdə hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini vurğulayan komitə sədri bu il 1500-ə yaxın hərbi qulluqçuya yeni mənzillərin verildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, aprel döyüşlərində iştirak edən hərbi qulluqçuların və onların ailə üzvlərinin Yeni Azərbaycan Partiyasının təşəbbüsü və maliyyə dəstəyi ilə Lənkərandakı "Palıdlı sahil" istirahət mərkəzində istirahəti təşkil olunub. Tədbirdə aprel döyüşlərinin Lənkəranda istirahət edən hərbi qulluqçuları da iştirak ediblər.

Döyüşlərdə göstərdikləri şücaətə görə Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə Milli Ordunun əsgərləri - Cəlilabad rayonunun Məlikqasımlı kənd sakini Röyal Nəsirovun, Masallı rayonunun Güllütəpə kənd sakini Firdovsi Bağırzadənin və Lənkəran rayonunun Vilvan kənd sakini Nahid Səfərovun ölümlərindən sonra təltif olunduqları "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medallar mərasimdə şəhidlərin ailə üzvlərinə təqdim edilib.

Şəhid əsgərlərin valideynləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Mərasimdə məktəblilərin ifasında hərbi vətənpərvərlik mövzusunda şeirlər ifa olunub, aprel döyüşləri ilə bağlı videoçarxlar nümayiş etdirilib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edirlər

İyulun 12-dən 21-dək Şumen şəhərində (Bolqarıstan Respublikası) İngilis dili fakültəsinin inkişafı üzrə işçi görüşü keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edəcək.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***11 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri Füzuli rayonunun Qaraxanbəyli kəndi yaxınlığında yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutub.

***12 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 14 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan və Voskepar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Aşağı Əskipara və Quşçu Ayrım kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Horadiz və Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Xocavənd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Şəhid Elvin Mirzəyevin təltif edildiyi medal ailəsinə təqdim olunub

***Düşmən təxribatının qarşısını alarkən şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Elvin Azadxan oğlu Mirzəyev "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medala layiq görülüb.***





AZƏRTAC xəbər verir ki, şəhidin layiq görüldüyü medal iyulun 11-də Xaçmaz rayon İcra Hakimiyyətində təşkil olunan mərasimdə onun ailəsinə təqdim edilib.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani, Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev çıxış edərək ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlərdən danışıb, aprelin əvvəllərində cəbhə bölgəsində döyüşlərdə ordumuzun qazandığı uğurları diqqətə çatdırıblar.

Tərtər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Elvin Mirzəyevin daim xatirələrdə yaşayacağı, onun qısa, lakin mənalı ömür yolunun gənclərə örnək olduğu bildirilib.

Daha sonra şəhidin layiq görüldüyü medal onun anasına təqdim olunub.

Şəhidin atası Azadxan Mirzəyev torpaqlarımızın azadlığı uğrunda canından keçən oğlu ilə fəxr etdiyini, onun qalib əsgər kimi şəhid olduğunu söyləyib. Şəhid atası bildirib ki, Elvinin digər 3 qardaşı və şəxsən özü də Vətən uğrunda döyüşməyə, torpaqlarımızı düşməndən azad etmək üçün silaha sarılmağa hər an hazırdırlar.

Qeyd edək ki, erməni silahlı qüvvələrinin təxribatları nəticəsində aprelin əvvəllərində cəbhədə gedən döyüşlərdə şəhid olan 22 yaşlı hərbi qulluqçu Elvin Mirzəyev doğulub boya-başa çatdığı Xaçmaz şəhərində torpağa tapşırılıb.

Ali Baş Komandan İlham ƏLİYEV:

*Aprel döyüşlərinin nəticələri Ermənistan üçün dərs olacaq, onlar lazımi nəticələr çıxaracaqlar və danışıqlar prosesində konstruktiv mövqe ilə çıxış edəcəklər.*





*Analitika*

# Əsrə bərabər günlər

*Qarabağ cəbhəsində aprelin ilk günlərində vəziyyətin kəskinləşməsi dörd gün çəkdi. Etiraf etmək lazımdır ki, cəbhədə atəşkəs imzalandığı 24 il ərzində atışmalar baş versə də, gərginlik bu səviyyəyə çatmamışdı. Kim tərəfindən və daha çox sabitliyin pozulduğunu bilmək və görmək üçün Azərbaycanın cəbhəyanı kəndlərindən hazırlanan xəbərləri izləmək kifayət idi. Müdafiə Nazirliyinin operativ məlumatlarında adları tez-tez çəkilən yaşayış məntəqələrimizdə yandırılmış evləri, çiliklənmiş pəncərələri, mərmilərlə dəlik-deşik edilmiş darvaza və qapıları görmək günahın, əslində, hansı tərəfdə olduğunu açıq-aydın göstərirdi.*

Təbii ki, əzəli Azərbaycan torpaqlarının 20 ildən artıqdır ki, işğal altında qalması, Ermənistan rəhbərliyinin Minsk Qrupu çərçivəsində danışıqları uzadaraq ciddi-cəhdlə status-kvonu saxlamağa çalışması Azərbaycan üçün qəbuledilməz idi. Bununla rəsmi İrəvan Qarabağ probleminin dondurulmuş vəziyyətdə saxlanması, münaqişənin həllinin arxa plana keçirilməsi və beləcə, Azərbaycanın əzəli torpaqlarında yeraltı və yerüstü sərvətlərin vəhşicəsinə talanmasının davam etdirilməsi məqsədini güdürdü. Başda nasist Zori Balayan olmaqla erməni ideoloqları beynəlxalq vasitəçilərin loyallığından istifadə edərək vəziyyətin dondurulmuş halda saxlanmasını alternativsiz variant hesab edirdilər. Öz məqalələrinin birində bu faşist təfəkkürlü yazıçı sanki İrəvan rəsmilərinə vəsiyyət edirdi: "Status-kvo əmanətil!"

Bütün bunların fonunda Ermənistan silahlı birləşmələrinin martın sonlarında ordumuzun mövqelərini, kənd və qəsəbələrimizə artilleriya silahlarından davamlı zərbələr endirməsi xalqımızın səbr kasasını daşıran son damla oldu.

Bu dörd gündə baş vermiş hadisələr dünya informasiya agentliklərində yuxarı sətirlərdə yer aldı, tərəfli və tərəfsiz müəlliflər hərbi əməliyyatlara müxtəlif yozumlar verdilər. Ən başlıcası isə odur ki, aprel döyüşləri bir sıra vacib məqamları, Bəxtiyar Vahabzadə demişkən, ahəstəcə qandırdı.



## Ordum varsa, yurdum var

Həmin günlərdə ordumuzun bölmələri ön plana çıxdı və döyüş meydanında göstərdi ki, müstəqilliyimizin qarantı olan qüdrətli Azərbaycan Silahlı Qüvvələri var və işğal edilmiş ərazilərimizi silah gücünə Ermənistanın zinvorlarından təmizləməyə qadirdir.

Son dövrlərdə Azərbaycan rəhbərliyi qoşunlarımızın modernləşməsinə hər il külli miqdarda, Ermənistanın dövlət büdcəsindən artıq vəsait xərcləyib. Hərbi hissələrimizin şəxsi heyəti modern silahların istifadə qaydalarını mükəmməl mənimsəyib. Azərbaycan əsgərinin döyüş ruhunun yüksəldilməsi üçün kompleks tədbirlər görülüb. Bir sözlə, ordumuz möhkəm hərbi intizama malik, yüksək döyüş qabiliyyətli güc strukturuna çevrilib. Bunu öz araşdırmalarında hərbi ekspertlər də vurğulayır və əsas parametrlərə görə Silahlı Qüvvələrimizin Cənubi Qafqaz ordularını və ilk növbədə Ermənistan ordusunu xeyli qabaqladığını qeyd edirlər.

Azərbaycan əsgəri döyüş meydanında göstərdi ki, havadarlarına ümid bağlasa da, erməni zinvoru onun qarşısında duruş gətirməyə qadir deyil. Bu gün Azərbaycan Ordusu Ali Baş Komandanın istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir intizamlı, ən müasir silah və döyüş texnikası ilə silahlanmış, yüksək döyüş qabiliyyətinə malik qüdrətli ordudur.

Ordumuzun bölmələri aprelin 2-də düşmənin təxribatçı əməllərinə son qoymaq, cəbhəyanı kənd və qəsəbələrimizi təhlükə altında saxlayan yüksəklikləri azad etmək üçün irəli atılmış, qısa vaxt kəsiyində düşməni illərdir möhkəmləndirdiyi mövqelərdən süpürüb atmış, döyüş tapşırığını tamamilə yerinə yetirmişlər.

Düşmənlərimiz qoşunlarımızın, ilk növbədə Azərbaycan əsgərinin əsl gücünü gördülər.

Qoşunlarımızın yüksək bacarığını erməni hərbçiləri də etiraf etməyə məcbur oldu. General-leytenant Samvel Babayan "civilnet.am"a müsahibəsində demişdi: "Dördgünlük müharibənin gedişində Azərbaycanın uğurları gözlənilməz oldu, ancaq azərbaycanlıların məlum mövqeləri yarım saat, bir saat ərzində götürdükləri faktdır."

Həmişə ölkəmizi Ermənistan ordusu ilə hədələyən, əgər hərbi əməliyyatlar başlayarsa, iki günə Azərbaycanı diz çökdürməyə qadir olduqlarını söyləyən general-mayor Arkadi Ter-Tadevosyan İrəvanda yayımlanan "İmpuls 106.5 FM" radiosuna aprelin 4-də verdiyi müsahibəsində həqiqəti deməyə məcbur oldu: "Onlar (azərbaycanlılar) öz məqsədlərinə çatdılar. Hərb elmində buna döyüşlə kəşfiyyat deyirlər."

## Əlahəzrət informasiya

Müasir dövrdə hərbi konflikt və müharibələri təkcə döyüş meydanında aparmırlar. Hərbi əməliyyatlar zamanı bütövlükdə xalqın iqtisadi, siyasi, hərbi potensialı vuruşur, mənəvi dözümlülüyü sınağa çəkilir. Aprel döyüşlərində xalqımız bu sınaqdan da uğurla çıxmağı bacardı.

Dünyanın bir çox ölkələrində güclü diaspor və lobbiyə malik ermənilər həmin günlərdə Azərbaycana qarşı kütləvi informasiya vasitələrində, internetdə psixoloji təzyiqləri xeyli gücləndirdilər. Ermənilərin təsiri altında olan media və internet resurslarında düşmən iki istiqamətdə mübarizə aparırdı.

Birincisi, boz bulanıq informasiya axını ilk növbədə Azərbaycan vətəndaşlarına ünvanlanır, ordunun döyüş ruhunu, xalqın psixoloji əzmkarlığını sarsıtmağa yönəlmişdi.

Yeri gəlmişkən, 2014-cü ilin avqustunda cəbhədə yaranmış gərginliklə əlaqədar ölkə rəhbərliyinin gördüyü qabaqlayıcı tədbirlər düşmənin bu istiqamətdə atdığı addımları puça çıxardı.

2014-cü ilin avqustunda cəbhənin Ağdam istiqamətində yaranmış gərginlik zamanı bəzi internet resurslarında yerli sosial şəbəkə istifadəçiləri tərəfindən həqiqətə uyğun olmayan, ordumuzun fəaliyyətinə kölgə salan qeyri-obyektiv məlumatlar yer almışdı.

O zaman Prezident İlham Əliyev 24 sentyabr 2014-cü ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncam imzaladı. Dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyətin gücləndirilməsi dövlət başçısının sərəncamında öz əksini dolğun tapdı. Həmçinin qoşunların dislokasiyası, hərbi-siyasi və əməliyyat şəraiti, hərbi sahədə Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xələl gətirə bilən digər məlumatların yayılmasının yolverilməzliyi, jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlər və digər zəruri tədbirlərin görülməsilə bağlı müvafiq dövlət qurumları qarşısında tapşırıqlar qoyuldu. Kütləvi informasiya vasitələrinin nümayəndələri və internet istifadəçiləri arasında aparılan iş öz bəhrəsini aprel hadisələri zamanı verdi. Ölkə kütləvi informasiya vasitələri mənbəyi məlum olmayan məlumatlara deyil, Müdafiə Nazirliyinin yaydığı məlumatlara istinad etməyə başladı. Nəticədə erməni və ermənipərəst qüvvələrin yaydıqları informasiyalar Azərbaycanda düşmənin ümid etdiyi səmərəni vermədi.

Amma Qarabağ münaqişəsi hələ bitmədiyindən və dövlətin təhlükəsizliyi baxımından önəm daşıdığı üçün düşmənin hansı üsullara əl atdığını bilmək lazımdır.

Ermənilər aprel döyüşlərinin gedişində Azərbaycan cəmiyyətində və orduda xaos, panika, ümidsizlik mühiti yaratmaq üçün bölmələrimizdə itkilərin, guya həddindən çox olması, çoxsaylı hərbi texnikamızın "şanlı Qarabağ ordusu" tərəfindən məhv edilməsi barədə "etibarlı mənbələrdən" alınmış məlumatları yayırdılar. Bu zaman onlar təkcə erməni KİV və ya internet resurslarından istifadə etmir, həm də guya neytral mənbələr kimi təqdim etdikləri media və şəbəkələrə istinad edirdilər.

(Ardı 6-cı səhifədə)

# Əsrə bərabər günlər



(Əvvəli 5-ci səhifədə)

Ermənistanın Müdafiə Nazirliyinin mətbuat katibi Arsrun Hovannisyan aprelin 4-də Facebook səhifəsində yazırdı ki, təsdiq olunmuş məlumatlara əsasən, Azərbaycan tərəfi 1994-cü ildə olduğu kimi, fərariləri və döyüşdə geriyə çəkilənləri güllələmək üçün cəza dəstələrindən istifadə edir. "Azərbaycan bölmələrinin döyüş qabiliyyəti o qədər aşağı düşüb ki, daha onlara heç muzdlular da kömək edə bilməz."

Başqa bir yalanda göstərilirdi ki, "Dağlıq Qarabağla həmsərhəd kəndlərdə "xaos və panika hökm sürür." Halbuki həmin günlərdə separatçı bölgədə mövcud olan panika barəsində ermənilərin özləri məlumat və videolar yayırdılar. "Komsomolskaya Pravda" qəzetinin müxbiri Şagen Nazaryan aprelin 3-də Şuşada yaşayan anasına istinadən bildirirdi ki, Dağlıq Qarabağda mülki əhali tələsik evlərini tərk edirlər.

Bu gün düşmən tərəfindən məqsədli surətdə yayılmış bu təxribat xarakterli məlumatların həqiqətdən uzaq olduğu Azərbaycanda heç kimə sirr deyil. Məlum hadisələr vaxtı ölkəmizin müvafiq strukturları, xüsusən Müdafiə Nazirliyinin Mətbuat Xidməti dərhal belə yalanları ifşa edir, cəbhədə real vəziyyət barədə operativ xəbərlər verirdilər.

Ordumuzun təmas xəttindəki uğurları isə cəmiyyətdə böyük ruh yüksəkliyi yaratmış, insanlar evlərinin eyvanlarından Azərbaycan bayraqlarını asmış, yüzlərlə gənc, tələbə orduya yazılmaq üçün Müdafiə Nazirliyinə müraciət etmişdi.

Ermənilər Azərbaycana qarşı informasiya müharibəsini həm də digər ölkələrdə gerçəkləşdirirdilər. Onlar "Dağlıq Qarabağ ordusunun" döyüş "şücaətləri" barədə miflər uydurmaqla yanaşı, Azərbaycanı və Silahlı Qüvvələrimizi nüfuzdan salmaq üçün həqiqətə uyğun olmayan məlumatlar yayırdılar.



Xüsusilə Rusiyada təsir imkanlarına malik olduqları mətbuatda, elektron informasiya vasitələrində və internet resurslarında hər vasitə ilə ölkəmizi aşağılamağa çalışırdılar. Ermənistanın və Rusiyanın maraqlarının guya üst-üstə düşdüyünü qabardan erməni və ermənipərəst "ekspertlərin" çoxluq təşkil etdiyi televerilişlərə Azərbaycanın maraqlarını "müdafiə edən" elə şəxsləri dəvət edirdilər ki, onların da çıxışı bumeranq effektilə Azərbaycana qarşı yönəlirdi.

Həmin günlərdə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu müxtəlif kütləvi informasiya vasitələrinə, telekanallara verdiyi müsahibələrdə Azərbaycanın ədalətli və obyektiv mövqeyini səbr və məntiqlə Rusiya ictimaiyyətinə izah etməyə çalışırdı.

Yaddaqalan məqamlardan biri də "5 Federal" kanalında yayımlanan "Açıq studiya" verilişində ermənilərin Jirinovskisi kimi ad çıxarmış və həmin günlərdə Rusiya telekanallarında Azərbaycanı və Türkiyəni ittiham edən politoloq Semyon Baqdasarovu Sankt-Peterburq Dövlət Universitetinin dosenti, tarix elmləri doktoru Niyazi Niyazov tutarlı arqumentlərlə yerinə oturtdu.

Ermənilərin Azərbaycana qarşı istifadə etdikləri guya informasiya "zərbələrindən" biri də ölkəmizi dini dövlət qurmağa çalışan və dünyada qeyri-insani əməllərilə terror təşkilatı kimi tanınan İŞİD-lə bağlamaq cəhdi idi. Erməni Aşot Qabrelyanova məxsus "LifeNews" telekanalı döyüşlərin ən gərgin vaxtında, aprelin 4-də Suriyadakı "hərbi mənbələrə" istinadən məlumat yaymışdı ki, guya İŞİD-in üzvü olan 50-70 nəfərlik azərbaycanlı dəstə döyüşləri tərk edib və Qarabağ döyüşlərində iştirak etmək üçün Türkiyə vasitəsilə Azərbaycana qayıdıb. Kökü olmayan bu məlumatı sonra digər erməniperəst media vasitələri yaymağa, həqiqət kimi təqdim etməyə çalışırdılar. Halbuki Azərbaycan dövlətinin dini-ekstremist cərəyanların tərkibində vuruşanlara münasibəti birmənalıdır. 2013-2014-cü illərdə xəlvəti Suriyaya gedərək İŞİD-in tərkibində vuruşduqları üçün Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Azərbaycan vətəndaşları Elşən İsmayılov 15 il və Mirrahim Abdullayev isə 11 il müddətinə azadlıqdan məhrum edilmişdi. Bu faktın özü göstərir ki, ermənilərin yalanı ölkəmizə qarşı təxribatdan başqa bir şey deyil.

Xarici ölkələrdə ermənilərin Azərbaycana qarşı apardıqları informasiya müharibəsinə Azərbaycan Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının IV Qurultayındakı çıxışında xüsusilə toxundu. Dövlət başçısının zəif yerimiz adlandırdığı bu məsələ ilə bağlı dedi: "Azərbaycan həqiqətləri haqqında, əlbəttə ki, dünya ictimaiyyətinə geniş informasiya verilməlidir. Biz dövlət olaraq bunu etməyə çalışırıq. Ancaq diaspor təşkilatlarından da çox şey asılıdır. Xüsusilə biz bunu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı informasiya təminatında görürük."

## İşğalçı rejimin maskası yırtıldı

Aprel əməliyyatlarının bir önəmi də ondadır ki, ordumuzun bölmələri bu döyüşlərdə riyakar Ermənistanın maskasını yırtaraq işğalçı ölkə olduğunu bir daha dünyaya nümayiş etdirdi.

Qarabağ müharibəsinin birinci mərhələsində formalaşmaqda olan Silahlı Qüvvələrimizin, əslində, müxtəlif ölkələrdə kök salmış erməni lobbisinin və havadar dövlətlərin güclü hərbi-siyasi dəstəyinə arxalanan Ermənistan ordusuna qarşı vuruşduğu Azərbaycanda heç kimdə şübhə doğurmurdu. Ələ keçirilmiş məxfi əməliyyat sənədləri, erməni əsirləri, həlak olmuş zinvorların Ermənistana məxsusluğu, Dağlıq Qarabağda vuruşmuş hərbçilərə rəsmi İrəvanın münasibəti bütün çılpaqlığı ilə göstərirdi ki, Dağlıq Qarabağda separatizmin alovlanmasına və ölkəmizin ərazi bütövlüyünə qarşı hərbi əməliyyatların aparılmasına görə hüquqi məsuliyyət məhz Ermənistan daşıyır. 1993-cü ildə Kəlbəcər döyüşləri zamanı Ermənistan Müdafiə Nazirliyi Baş Qərargahında hazırlanmış və Dağlıq Qarabağda planlaşdırılan hərbi əməliyyatın əks olunduğu məxfi əməliyyat xəritələri ordumuzun bölmələri tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində ələ keçirilmişdi. Bu, Azərbaycana qarşı Dağlıq Qarabağda separatçı rejimin deyil, bilavasitə Ermənistan ordusunun vuruşduğunu sübut edən ən tutarlı faktlardan biri idi.



Amma təəssüflər olsun ki, dövlət başçısı İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, dünyada mövcud olan ikili standartlar ucbatından işğalçı ölkə kimi Ermənistana layiq olduğu yeri göstərən yoxdur və onun zəbt etdiyi ərazilərdən çıxarılması üçün real addımlar atılmır.

Aprel döyüşlərində erməni bölmələri itkilər verərək mövqelərini tələsik tərk edərkən çoxlu qənimət və işğalçı ordu barəsində "dəlillər" qalmışdı. Götürülmüş sənədlər arasında müxtəlif döyüş vəsaitləri, xəritələr və könüllülərə, muzdlulara deyil, hərbi xidmətə çağırılaraq Dağlıq Qarabağa göndərilmiş həqiqi xidmət hərbi qulluqçularına verilmiş Ermənistan ordusuna məxsus hərbi biletlər vardı.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin nümayiş etdirdiyi qənimətlər arasında Ermənistan Respublikasının Çarentsavan hərbi komissarlığı tərəfindən 11 iyul 2015-ci ildə Karen Nersisyana verilmiş 00077973 nömrəli hərbi bilet də yer alıb. Təkcə bu hərbi bilet bütün çılpaqlığı ilə sübut edir ki, əzəli Azərbaycan torpaqlarını işğal altında saxlayan rəsmi Ermənistandır.

Məlum hadisələr zamanı Azərbaycan döyüşçüsünün gülləsinə tuş gəlmiş təkcə Ermənistan ordusunun 19 yaşlı əsgəri Karen Nersisyan deyil. Digər 19 yaşlı əsgər Gevorq Vardanyan Gümrü hərbi komissarlığından, daha bir 19 yaşlı əsgər Tiqran Beraksyan İrəvandan çağırılaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsində xidmətə göndərilib.

Ermənistan Silahlı Qüvvələrinin 33 yaşlı zabiti podpolkovnik Aleksan Arakelyan aprelin 2-də Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə həlak olub. Ermənistanın Sünik vilayətinin meri ölmüş zabitin ailəsinə mənzil versə də, atası Gevorq Arakelyan mənzildən imtina edib: "Dəysin onların başlarına! Oğlum Ermənistan ordusunda 16 il xidmət etdi, mənzil ala bilmədi. Daha doğrusu, ona mənzil vermədilər. İndisə elə bil itin qabağına sümük atırlar."

Bir sözlə, Ermənistan Müdafiə Nazirliyinin aprel ayı ərzində itkilərlə bağlı verdiyi rəsmi statistik məlumatlara əsasən, həlak olmuş hərbçilərin əksəriyyəti (düşmən ölkənin sosial şəbəkə istifadəçiləri həmin günlərdə 322 erməni hərbçisinin öldürüldüyünü bildirmişdi) Ermənistandan Dağlıq Qarabağa göndərilmiş zabit və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularıdır. Bütün bunlar açıq-aydın göstərir ki, Silahlı Qüvvələrimiz təmas xəttində məhz Ermənistan ordusu ilə üz-üzə dayanıb.

Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri öz potensialına görə Ermənistan ordusu ilə müqayisədə qat-qat üstündür. Bu həqiqəti cəbhədə baş vermiş hadisələri obyektiv dəyərləndirən hərbi ekspertlər də vurğulayırlar. Baş vermiş qarşıdurmadan Ermənistan rəhbərliyi düzgün nəticə çıxarmalı və işğalçılıq niyyətindən əl çəkməlidir. Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, aprel döyüşlərinin nəticələri Ermənistan üçün dərs olacaq, onlar lazımi nəticələr çıxaracaqlar və danışıqlar prosesində konstruktiv mövqe ilə çıxış edəcəklər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Düşüncələr

# Ruhumuzu yaşadanlar ruhumuzda yaşayır

*Dünən bu günün başlanğıcıdı, bu gün sabahın. Ruhumuz sabahlar üçün yaşadılıb, sabahlar üçün ruhumuzda yaşadılır; yaşayan, yaşadılan milli-xəlqi ruha görə yaşayırıq, əsgər qardaşım, zabit qardaşım!..*

1992-ci il.

İyunun əvvəlləriydi. Tərtərdə ezamiyyətdəydim. Hərbi hissənin həyətində narahatlıqla gəzişir, bizi mövqelərə - səngərlərə aparacaq maşının gəlişini gözləyirdik. Bürküydü. Qəribə havaydı; göy üzündə buludlar gah sıxlaşır, gah seyrəlirdi. Yarpaq titrədəsi meh də əsmirdi.

Bizə elə gəlirdi ki, zaman ləngiyir. Ləngiyən zamanın içindən sıyrılıb çıxmağa, əlimizin səngərlərdə əsgərlərin əlində isinəcəyi anlara tələsirdik. Qılığa yatmayan düşüncələr, düşüncələrə çökən gümanlar, gümanları sıxan ümidlər rahatlığımıza qənim kəsilmişdi. Könlümüz səngər arzulayırdı; ürəyimiz bizi səngərlərə çəkirdi. Əsgərlərin qışın sazağında isindiyi, yayın bürküsündən daldalandığı səngərlərə. Darıxdığımdan hərbi hissənin sağındakı ağaca sarı baxmışdım. Həmkarım Knyaz Aslanın baxışlarında ümidverici bir təbəssüm görmüşdüm; şirin-şirin gülümsünürdü...

Goranboy əməliyyatından sonra tanıdığımız, ürəyinə, cəsarətinə, qətiyyətinə bələd olduğumuz, düşüncələrində doğmalıq gördüyümüz Yusif Mirzəyev hərbi hissədəymiş. Elə bil dünyanı mənə vermişdilər...

Knyaz Yusiflə söhbətləşmək istəyimi bilirdi. Tərtərdən sonra buna imkan olmamışdı; gah ezamiyyətin başa çatması, gah döyüşlər...

Knyazın şirin təbəssümü arzuladığım görüşü gerçəkləşdirən təsadüfün sevinciymiş. Günlərin-ayların ləngimiş anlarının, səmimi könül söhbətinin cazibəsinə düşəcəyinə sevinirmiş...

Bayaqdan bəri ləngidiyini güman etdiyimiz maşının bir söhbət müddətiycə gecikməsini arzulayırdıq...

İllər keçsə də, o söhbətin mahiyyəti, məzmunu yaddaşımdan üzülməyib...

Söz sözü çəkmişdi. Torpaqdan danışmışdıq, Vətəndən, döyüşlərdən, döyüşçülərdən danışmışdıq, şəhidlərdən, şəhidlikdən danışmışdıq. Yusif bircə kəlmə də "mən" deməmişdi, "biz" demişdi, "əsgərlər" demişdi, "qələbə" demişdi. Həm də o qədər istəklə, o qədər hərarətlə demişdi ki!..

Mövlanənin bir misrasını xatırlatmışdım: "Bir mən də var məndə məndən içəri". "Yusif", - demişdim. "İçindəki Yusifi səndən çox istəyirəm". Gülümsünmüşdü...



"Xocalı faciəsi, Şuşanın işğalı, Xocalıda, Şuşada şəhid olanların qırılan ömürləri ömrümüzü budadı. Məndən, səndən ötən güllə torpağa dəyir, torpaq yaralanır, Vətən yaralanır. O yaralar sağalınca xəcalət çəkəcəyik, neçə dəfə ölüb-diriləcəyik...". Qəhərlənmişdi. Köksünü ötürmüşdü. Alnını ovxalamışdı. Nələrə görəsə təəssüflənmişdi. "İki gün əvvəl gərgin döyüş oldu. Səməd ayağından yaralansa da, döyüşü davam etdirib. Vasifin yaralandığını hiss edincə çətinliklə də olsa, özünü ona yetirib. Yaralı əsgər yan-yörəsinə sancılan güllələrə məhəl qoymadan yaralı əsgəri döyüşün içindən çıxardıb. Son anlarda ölümcül yaralanıb... Səməd şəhid oldu. Ona dəyən gülləni canında hiss elədim. Torpağı vətənləşdirən həm də əsgərin əsgərə belə can yandırmasıdı, əsgərin son nəfəsinin Vətənə ad olmasıdı..." - demişdi...

"Hər birimiz hər şəhidə ömür borcluyuq. Vətənə görə yaşanılan ömürlər, Vətənə görə şəhidliyə qənşər gedənlər - şəhidlər ruhumuzun can ortağıdı. Onlar ruhumuzu yaşada-yaşada ruhumuzda yaşayır", - demişdi...

"Adamın barmağına tikan batanda ufuldayır. Bəs torpaq? Torpağın sızıltısını duymalıyıq. O sızıltılar olmasın deyə vuruşuruq, o yaralar sağalsın deyə vuruşuruq, o giziltilər yumşalsın deyə şəhid olur oğullar. Dastanlarımızda deyildiyi kimi, "bir qaşıq qanımızdan qorxmadan" vuruşuruq. Əlimə silah alan gündən bir əqidəylə yaşayıram: Vətən üçün doğulmuşuq, Vətən üçün ölməliyik. Əsgərlərimiz də döyüşlərə bu amalla gedir..." - bu kəlmələrdən qürurlanmaya bilərdimmi? "Oğulların var, Vətən!" deməyə bilərdimmi? Qürurlanmışdım, o kəlmələri qədərsiz sevgilərlə üzü göylərə demişdim. Ağdərənin sərhədlərini aşan səsimi yerlər eşitmişdimi?..

...Yusif Mirzəyevin də son nəfəsi Vətənə ad oldu...

Ruhumuzu yaşada-yaşada ruhumuzda yaşayanlardan biri oldu Yusif Mirzəyev...

Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyev sağ olsaydı, aprel döyüşlərində şəhid olanlar haqqında da belə deyərdi. İndi bu kəlmələri bizlərə Yusifin ruhu pıçıldayır...

Ruhumuzu yaşadanlar ruhumuzda yaşayır, əsgər qardaşım, zabit qardaşım!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Vətəni sevin!

Hava elə gözəliydi ki!

Bu gözəl havada könül bayramında - Ramazan bayramında xoş ovqat yaşadıq...

Könlümüz bizi Lələtəpəyə çəkirdi. Şübhəsiz ki, orada əsgərlərimiz də bu ovqatdaydı.

Ramazan bayramıydı. Hamı əzizləriylə bayramlaşırdı. Yaşlıların, ağsaqqalların-ağbirçəklərin ziyarətinə gedirdilər. Belə gedişlər ziyarət eləyənə də, ziyarət olunana da böyük könül xoşluğu verirdi. Adətlərimiz beləcə yaşadılır. Zamanında yaşadılıb, yaşadırıq, yaşadılacaq da!..

Ramazan bayramıydı...

Cəmiyyətdə də bayramıydı, könüllərdə də...

Qonşuluğumuzda orta yaşlı bir kişi yaşayır. Hamı ona Tahir dayı deyir; elə bil hamının dayısıdı. Müharibə iştirakçısıdı, ikinci qrup Qarabağ müharibəsi əlilidi. Qızları ailə qurub. Biri xaricdə yaşayır, biri Bakıda.

Tahir dayının həyat yoldaşı vəfat eləyib. Qızları, kürəkənləri nə qədər üz vursalar da, gedib onlarla yaşamır. "Ata yurdum işğaldadı. Bura mənim ocağımdı. Orada ocağım kor qaldı, ocağımı burada kor qoya bilmərəm. Siz könlümcə yaşayın, bəsimdi..." - deyir. Kimsə onu qınamır.

Qızları, kürəkənləri, nəvələri ona vaxtaşırı baş çəkirlər. Onda Tahir kişi sevincindən yerə-göyə sığışmır.

Tahir kişi ocağında tənha olsa da, tək deyil. Təkliyini ona həmsöhbətləri unutdurur, onu dayı bilən yeniyetmələr, çağırışçılar, hərbi xidmətdən tərxis olunanlar unutdurur...

Tahir kişi o həndəvərlərdə yaşayanların hamısını özünün əzizi bilir. Hərbi xidmətə gedənləri o uğurlayır, hərbi xidmətdən qayıdanların ata-anasına ilkin gözaydınlığını o verir. Toyda-nişanda özünü doğmalarının əhatəsində olduğu kimi hiss eləyir. Yaşı ağsaqqallıq yaşına çatmasa da, ağsaqqaldı; Tahir kişi böyük ürək yiyəsidi...

Gənclərlə söhbətləşməyi sevir. Onun hər söhbəti gənclər üçün bir vətənpərvərlik dərsidi. Gənclərə Qarabağ döyüşlərindən danışır, qəhrəmanlardan danışır, şəhidlərdən danışır. "Vətəni sevin" - deyir. "Biz sevdiyimizdən də dərin məhəbbətlə sevin"...

Ramazan bayramıydı.

Biz yaşayan binanın yaxınlığındakı binalarda yaşayan yeniyetmələr bir yerə toplaşmışdılar. Hamısının üzündə-gözündə bayram ovqatı, bayram sevinci vardı. Elə bil bu anlar üçün yaşayırlarmış. Qədərsiz sevinc içində narahatlıqla gəzişir, kimisə gözləyirdilər...

Yeniyetmələr o həndəvərlərin ağsaqqalının - hamının dayı bildiyi Tahir kişinin bayramını təbrik eləməyə gedirlərmiş. Qızlarından, nəvələrindən əvvəl!

Tahir kişi təbiət etibarilə kövrək adamdı. O görüşün könül xoşluğunu təsəvvür eləmək çətin deyil...

O, yeniyetmələr cavanlaşacaq, hərbi xidmətə gedəcək. Onda da Qarabağ müharibəsi veteranıyla beləcə görüşəcəklər, zamanında səngərli aylar-illər yaşamış bir kişinin xeyir-duasıyla Vətənin keşiyində dayanmağa yola düşəcəklər.

"İki qızım var, minlərlə oğlum. Tanıdığım-tanımadığım oğlanların hər biri mənə oğuldu. Əgər Vətəni sevirsə, əgər Vətəni göz bəbəyi kimi qoruyursa, qorumağa hazırdırsa..." - deyir Tahir kişi.

Bir dəfə qonşumuz Günel yarızarafat-yarıciddi soruşmuşdu: "Tahir dayı, bəs qızlar?". Onda Tahir kişi Günelin saçlarına sığal çəkib gülümsünmüşdü: "Qızlar da qızımdı, qızım..."...

...Ramazan bayramında hamı əzizləriylə bayramlaşırdı...

Yemiyetmələr - yaxın gələcəyin əsgərləri ikinci qrup Qarabağ müharibəsi əlilinin bayramını təbrik elədilər...

Bayram günü hava elə gözəliydi ki!..

**Gülsürə HÜSEYNOVA**

# "Vətəni qorumaq borcumuzdur"



Dağlıq ərazilərdə yerləşən ön mövqelərimizə yollanırıq. Yol boyu "Açıq qapı" günündə əsgərlərlə, valideynlərlə apardığım söhbətləri düşüncələrimdə bir yerə cəmləməyə çalışıram. Əsgər nəvəsinin ordu bayramını təbrik etmək üçün onu ziyarətə gələn 87 yaşlı babanın "Doğma Laçınımın həsrətilə yaşayıram. O gün olsun ki, ordumuz Laçınımızı, işğalda olan torpaqlarımızı düşməndən azad etsin. Qayıdaq, dədə-baba yurdumuza" söylədiyi kəlmələri dönə-dönə xatırlayıram: o torpaq həsrətli ağsaqqalın Ali Baş Komandanımıza, Müdafiə nazirimizə, əsgər və zabitlərimizə ünvanladığı təbrikləri, xoş sözləri onlara böyük inamının və güvəninin təzahürü idi. "Allah qoysa, tezliklə bayramlarımızı doğma Laçınımızda, Şuşamızda, erməni əsirliyindən azad olacaq torpaqlarımızda qeyd edəcəyik," - deyən laçınlı ağsaqqalın simasında torpaq həsrətlilərimizin yaşadıqları ağrı-acıları gördüm.

Ön mövqelərimizin dayaq məntəqələri səngərdən qalalı dağların zirvəsindədir. Düşmənə sipər olan Vətənimizin dağ vüqarlı oğulları burada ayıq-sayıq döyüş növbəsi çəkirdilər. Şəxsi heyətin arzu və istəklərini, qəzetimizlə bağlı fikirlərini öyrənmək üçün onlarla söhbət aparırıq.

Bölük komandiri baş leytenant Misirxan Dadaşov bizimlə söhbətində bildirdi ki, o, əvvəlcə liseydə sonra hərbi məktəbdə təhsil alıb. Həyatda ən böyük arzusu hərb elminin sirlərinə dərindən yiyələnib şərəfli zabit adını daşımaq olub. "Fəxr edirəm ki, bu gün mən də torpaqlarımızı erməni qəsbkarlarından azad etməyə hər an hazır olan Silahlı Qüvvələrimizin zabitləri ilə eyni sırada dayanmışam. Gənc zabit söhbətində onu da dedi ki, Vətənimizin, xalqımızın xoşbəxt gələcəyi naminə, ölkəmizdə müharibənin başa çatması, sülhün, əmin-amanlığın bərqərar olması naminə Ali Baş Komandanın əmrlərini, Müdafiə nazirinin tapşırıqlarını yerinə yetirməyə həmişə hazırdır.

Motoatıcı bölüyün komandiri baş leytenant Vüqar Abbasov söhbətində orta məktəb illərindən xatirində qalan maraqlı anlardan danışdı. "O illərdən yaddaşımda daha dərin iz salan ədəbiyyat müəllimimizin hər dərsdə Qarabağ müharibəsində şəhid olan biləsuvarlı mərd oğulların döyüş yolları haqqında qısa məlumat verməsi idi. İllərdən sonra o oğulların adlarının sırasına bir ad da əlavə olunacaqmış. Bu ad Azərbaycanın Milli Qəhrəmanı şəhidliyi ilə tarix yazan Mübariz İbrahimovun adı idi..." - deyən gənc zabit Vətəni qorumaq peşəsini, hərbçi peşəsini orta məktəb illərindən seçim etdiyini söyləyir. Biləsuvar torpağında doğulub böyüyən baş leytenant V.Abbasov söhbətinə davam edərək bildirdi ki, Vətən hər birimizindir. "Onu qorumağa borcluyuq. Gərək üzərində gəzdiyin, havasını udub yaşadığın bu torpağın qədrini biləsən, qorumağı da bacarasan. Mən Vətənim Azərbaycanı çox sevirəm. Onun yolunda canımdan, qanımdan keçməyə hazıram."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Asudə vaxtın səmərəliliyi üçün





Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçuların asudə vaxtının səmərəli keçirilməsi və fiziki hazırlığının yüksəldilməsi məqsədi ilə "N" hərbi hissəsində "Vətənə, xalqa, dövlətə, xidmət ömrümüzün mənasıdır" devizi altında tədbir keçirilib.

Qonaqların hərbi hissədə əvvəlcədən təyin olunmuş marşrut üzrə hərəkətləri təşkil olunub. Onlar şəxsi heyətin qida rasionu, əşya əmlakı, rabitə vasitələri, silah və döyüş texnikasının bir qismi ilə tanış olublar.

Tədbirdən sonra ümummilli lider Heydər Əliyevin xatirəsini yad etmək məqsədi ilə hərbi hissədən bir qrup zabit, gizir və əsgər heyətinin Ağcabədi şəhərindəki Heydər Əliyev parkına ekskursiyası təşkil olunub. Heydər Əliyevin abidəsi önünə gül çələngləri qoyulub. Həmin gün Ağcabədi rayon İcra Hakimiyyəti tərəfindən Heydər Əliyev adına parkda konsert proqramı təşkil olunub.

Eyni zamanda döyüş və ictimai-siyasi hazırlıq prosesində yüksək nailiyyətlər əldə etmiş hərbi qulluqçuları həvəsləndirmək məqsədi ilə döyüşçülərin ailələri təşəkkür məktubu və fəxri fərmanla təltif olundular.

Tədbirdə Ağcabədi rayon İcra Hakimiyyəti ictimai-siyasi şöbənin nümayəndəsi, "Komandos" şagirdlər qrupu və Ağcabədi rayon Hindarx qəsəbəsi 7 illik Uşaq Musiqi məktəbinin özfəaliyyət kollektivi hərbi hissənin şəxsi heyəti qarşısında çıxış etdilər.

**"Azərbaycan Ordusu"**

# Bakıda NATO-nun mobil təlim qrupu "Təlimlərin planlaşdırılması" kursunu keçirir

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2016-cı il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun Brunssum şəhərində (Niderland Krallığı) yerləşən Birləşmiş Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən "Təlimlərin planlaşdırılması" mövzusunda təlim kursu keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, kurs müddətində NATO nümayəndə heyəti tərəfindən iştirakçılara "NATO-nun Komanda və Qüvvə strukturu", "NATO-da təlim və proqramlaşdırma prosesi", "Təlim planlaşdırılmasının əsas xüsusiyyətləri", "Təlim konsepsiyaları", "Təlimlərin planlaşdırılması və hazırlanması", "Təlimin idarə edilməsi" və digər mövzulara dair mühazirələr oxunur, eləcə də işçi qruplarda müzakirələr və fikir mübadilələri aparılır.

Silahlı Qüvvələrin müxtəlif qoşun növlərindən olan hərbi qulluqçuların iştirak ilə keçirilən kurs iyulun 14-dək davam edəcək.



# Aprel döyüşləri gənc rəssamın yaradıcılığında

Sənəti sənətkar yaşadır. Tarixən yeniyetmələr maraq göstərdiyi peşəyə yiyələniblər. Bu gün də belədi, sabah da belə olacaq. Zaman ötdükcə onların arasından dövrün tanınmış sənətkarları çıxıb. Həm də sənətin pisi yoxdu, pis sənətkar olur. İllərdir tanıdığım, qabiliyyətinə və xidmətinə yaxından bələd olduğum zabit yoldaşım mənə sağlamlığı (eşitmə qabiliyyəti zəif) məhdud olan bir gəncin əl işlərini təqdim etdi. Rəsm əsərləri ilə tanış olmazdan əvvəl düşündüm ki, o, sənətə qiymət verməyi bacaran zabitdir. Həm də az-çox bu işdən yetərincə məlumatlıdır. Çünki o, rəssam ailəsində dünyaya göz açıb.

...Hələ kiçik yaşlarından rəsmə maraq göstərən Ləman bəlkə də nə vaxtsa belə olacağını heç xəyalına da gətirməmişdi. İllər ötdükcə o, üzərində daha çox çalışır, bilmədiklərini anasından öyrənirdi. Hər dəfə rəsm çəkdikcə yeniliyə can atırdı...

Ləman ölkəmizdə keçirilən bir çox rəsm müsabiqələrində iştirak etdi. Onun bir-birindən fərqli və dərin mənalı sənət əsərləri baxanı heyran edir.

Onun ərsəyə gətirdiyi ornamentlər düşündürücüdü, lakonikliyi ilə seçilir. Vətənpərvərlik mövzusunda çəkdiyi "Uşaqlar və müharibə", "Xocalı soyqırımı", "Xocalı harayı" kimi rəsmlər onun qeyri-adi istedada malik olduğunun təsdiqidir. Ümummilli lider Heydər Əliyevin portretləri gənc rəssamın əsərləri sırasında xüsusi yer tutur.

Ləman Aslanova dekorativ-tətbiqi incəsənətdə böyük uğurlar əldə etməkdədir. Onun əsərləri arasında ölkəmizin müxtəlif bölgələrinin flora və faunasını əks etdirən tablolar könülləri oxşayır. Ləman yeni əsərlərini yaradarkən material, forma və rəngləri ustalıqla seçə bilir.

Qeyri-adi istedadı olan Ləman zamanında Azərbaycan Milli Konservatoriyasının nəzdində Respublika İncəsənət Gimnaziyasına daxil olub. O, bu il gimnaziyanın təsviri və tətbiqi sənəti şöbəsini bitirib. Gimnaziyada təhsil aldığı illərdə bir çox müsabiqələrdə fəal iştirak edib. Fəxri fərmanlar və diplomlara layiq görülüb. Əzim Əzimzadə adına Rəssamlıq Akademiyasının tələbəsi olmaq onun ən böyük arzusudur.

Diqqət çəkən rəsm əsərləri sırasında müharibə mövzusunda olanlar da çoxdur. Bunların arasında cəbhə bölgəsində yaranmış sonuncu gərginlik Ləmanın diqqətindən kənarda qalmayıb. Bu il aprel döyüşlərində ordumuzun düşmən üzərində qazandığı qələbə gənc rəssamın fırçasında aydın görünür.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Azərbaycan əsgərinə inam

...Qatarın yola düşməsinə yarım saat vardı. Perronda gəzişirdim. Təsadüfən çoxdan tanıdığım tanışlarımdan biriylə qarşılaşdım. Məlum oldu ki, o da rayona gedir. Hansı marağa görə bir qədər çəkingənliklə soruşdum: "Xeyirdirmi?" Gülümsündü. Bu gözlənilməz təbəssümdə qürur da vardı, sevinc də, şükranlıq da:

- Bu səfərim illərlə gözlədiyim səfərdi. Oğlum hərbi xidmətə çağırılıb. Onu yola salmağa gedirik. Anası, bacısı, bir də mən.

Qaşlarım çatıldı. Bakıda yaşayan atanın oğlu hərbi xidmətə niyə rayondan gedir? Ata oğlunu niyə rayona göndərib? Tanışımın dünyaduyumuna, ziyalılığına, vətənsevərliyinə bələd olmasaydım, başaçılmaz gümanlara təslim olardım...

Tanışım ürəyimə yük olan fikirləri duyubmuş kimi ağır-ağır dilləndi:

- Atam rəhmətə getdi. Anam tək qaldı. İki qardaş, bir bacıyıq. Bacım Gəncədə yaşayır, qardaşımla mən Bakıda. Nə qədər elədiksə, anam bizimlə Bakıda yaşamaq istəmədi. "Ata yurdunuzu boynubükük qoya bilmərəm, ay bala," - dedi. "Ata yurdunuzu işıqsız qoya bilmərəm. Yaşımın bu çağında məni günaha batırmayın. Vaxt tapanda siz gələrsiniz, arada nəvələrimi görməyə mən gələrəm...". Bakıya qayıtmalıydıq. Oğlum gəlmədi. "Nənəmlə qalıram," - dedi. O qalan nənəsinin yanındadı. Orada yaşadı, orada oxudu.

Oğlumun şirin yumor hissi var. Arada mənə "Böyük qardaşımsan, ata", - deyir. "Mən nənəmin oğluyam". Oğlumun anama, baba yurduna bu sevgisi məni kövrəldir də, sevindirir də. Taleyimdən çox razıyam ki, Qadir belə düşünür. Universitetə daxil oldu. Nənəsinə həyan olmaq üçün ürəyinin hökmüylə, istəyiylə qiyabi şöbəyə keçdi. Ata yurdumuzda yaşayır, işləyir, nənəsinə oğuldu oğlum!..

Qadir baba yurdunun işığının yanması üçün hər cür əyləncələrə zəngin olan şəhərdə yaşamaqdan imtina eləyib. Belə bir yeniyetmənin geniş dünyagörüşü ürəyimi tellləndirdi. "Xoşbəxt atasan!" - dedim...

Bir anlığa 90-cı illəri xatırladım...

Bir anlığa 1994-cü ildən sonrakı dövrü xatırladım...

Bir anlığa aprel döyüşlərini xatırladım...

Aprel döyüşlərində iştirak eləmiş zabitlərimiz, əsgərlərimiz bilir ki, azərbaycanlı gənc, azərbaycanlı çağırışçı bu əqidəylə yaşayır, sıralarına bu əqidəylə yaşayan əsgərlər gəlir. Şuşaya birlikdə gedəcəklər.

Çox qürurlandım. Qapısı bağlı evlər düşdü yadıma. O evlərin yiyələrinə yazığım gəldi. O evlərin işığının yanacağı gün göylər də, yerlər də gözəlləşəcək...

...O gün oğlu hərbi xidmətə çağırılan atanın nə qədər qürur hissi keçirdiyini gördüm. Bu qürur xalqımızın tale cığırdaşı olacaq. Hələ də belə bir qürurun cazibəsindəyəm. Bu cazibə Azərbaycan əsgərinə olan sonsuz inamdı. Bu inam həm də sənə inamımızdı, Vətən!..

**Mübariz MUSAYEV,
"Azərbaycan Ordusu"**

Rizvanov Sərvan Səməd oğluna 2001-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 421
Nüsxə 4650